# PwC Azerbaijan Times

Biznes qanunvericiliyi & Təcrübəni yeniləmə

## 1.“Qrant müqavilələrinin (qərarlarının) qeydə alınması Qaydası”nda dəyişiklik edilib.

Azərbaycan Respublikası Nazirlər Kabineti qrant müqavilələrinin (qərarlarının) qeydiyyatı qaydalarında dəyişiklik edib.
Dəyişikliyə əsasən, qeyri-hökumət təşkilatları qrant müqavilələrinin (qərarlarının) qeydə alınmasının elektron qaydada həyata keçirilməsi üçün müraciət edə bilərlər. Qeyd edək ki, bu sənədlərin təqdim olunması bu vaxtadək yalnız kağız daşıyıcılarda həyata keçirilirdi.
Qərar 07 noyabr 2020-ci il tarixindən qüvvəyə minib.

## 2. “Malların ixrac qeydi ilə satışı Qayda”sı təsdiq edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabineti 16 noyabr 2020-ci il tarixində “Malların ixrac qeydi ilə satışı Qaydası”nı təsdiq etmişdir.
Qaydalarda ixrac qeydi ilə satış, həmçinin alınan malların ixracını həyata keçirən şəxslərə (istehsalçılara) dair tələblər, malların ixrac qeydi ilə satışına aid edilməyən şəxslər və əməliyyatlar, malların ixracının həyata keçirilməsi prosesi əks edilmişdir.

## 3. “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikası Qanununa dəyişiklik edilib.

Dəyişikliyə əsasən, publik hüquqi şəxsin təsisçisinin səlahiyyətləri artırılıb.
Publik hüquqi şəxsin təsisçisi strukturun, əməyin ödənişi fondunun, işçilərin say həddinin və onların əməkhaqlarının məbləğinin təsdiqi səlahiyyətinə də malik olacaqdır.
Qanuna dəyişiklik 24 noyabr 2020-ci il tarixindən qüvvəyə minib.

## Qeyd edilən məlumatlarla bağlı hər hansı sualınız yaranarsa bizə müraciət edin


**Movlan Paşayev**
Ölkə üzrə İdarəedici Partnyor
movlan.pashayev@pwc.com

**Elçin Məmmədov**
Direktor, Hüquqi Praktikasının Rəhbəri
elchin.mammadov@pwc.com

**Aysel Suleymanova**
Marketinq və Kommunikasiya məsələləri üzrə Rəhbər
aysel.suleymanova@pwc.com

**Arif Quliyev**
Direktor, Vergi Məsləhəti Xidmətləri üzrə Rəhbər
arif.guliyev@pwc.com

**Elnur Məmmədov**
Direktor, Vergi Hesabatlığı və Strategiyası Praktikasının Rəhbəri
elnur.mammadov@pwc.com



© 2020 PwC. Bu xəbərdə əks olunan informasiya yalnız ümumi məlumat xarakteri daşıyır və hərtərəfli hüquqi analiz təşkil etmir. Məlumatların dəqiqliyinə və tamlığına dair heç bir zəmanət verilmir. Hər hansı bir nəticəyə gəlib onu tətbiq etməzdən (və ya etməməzdən) əvvəl oxucular öz spesifik məsələləri üzrə mütəxəssislərin məsləhətini almalıdırlar. Oxucuların bu xəbərlərdəki məlumata əsaslanıb hər hansı bir nəticəyə gəlib onu tətbiq etmələrinə və ya hər hansı vacib məqamı nəzərdən qaçırmalarına görə biz heç bir məsuliyyət daşımırıq.